# İxtisasartırma təhsilinin Kurikulum Çərçivəsi və ixtisasartırma təhsili proqramlarının qiymətləndirilməsinə dair təlimatın təsdiq edilməsi barədə Azərbaycan Respublikası təhsil nazirinin əmri

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 6 sentyabr 2010-cu il tarixli 163 nömrəli qərarı ilə təsdiq edilmiş «Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi Qaydası»na uyğun olaraq məktəbəqədər, ümumi, ilk peşə-ixtisas və məktəbdənkənar təhsil müəssisələrinin rəhbər və pedaqoji kadrları üçün ixtisasartırma təhsilinin modul-kredit əsaslı yeni model üzrə həyata keçirilməsini, ixtisasartırma təhsili sistemində rəqabət mühitinin formalaşdırılmasını, müvafiq ixtisasartırma təhsili proqramlarının qiymətləndirilməsi və tətbiqi mexanizminin yaradılmasını təmin etmək məqsədilə

**ƏMR EDİRƏM:**

1. "Məktəbəqədər, ümumi, ilk peşə-ixtisas və məktəbdənkənar təhsil müəssisələrinin rəhbər və pedaqoji kadrları üçün ixtisasartırma təhsilinin Kurikulum Çərçivəsi" və "İxtisasartırma təhsili proqramlarının qiymətləndirilməsi və tətbiqinə dair təlimat" təsdiq edilsin (əlavə olunur).

2. Əlavə təhsil müəssisələri tərəfindən təqdim olunan ixtisasartirma təhsili proqramlarının qiymətləndirilməsi və tətbiqinə icazə verilməsini həyata keçirmək üçün aşağıdakı tərkibdə komissiya yaradılsın:

| | |
|---|---|
| Ənvər Abbasov | Təhsil Problemləri İnstitutunun Kurikulum Mərkəzinin direktoru, komissiyanın sədri |
| Ağababa İbrahimov | Tərbiyə və məktəbdənkənar müəssisələrlə iş şöbəsinin müdiri, üzv |
| Zöhrab Kəlbəliyev | Ştrateji təhlil, planlaşdırma və kadrların idarə olunması şöbəsinin Əlavə təhsil sektorunun müdiri, üzv |
| Nərminə Alnağıyeva | Məktəbəqədər təhsil sektorunun müdiri, üzv |
| Rəsul Əsgərov | Təhsil Problemləri İnstitutunun İlkin Peşə Təhsilinin İnkişaf Mərkəzinin direktoru, üzv |
| Piralı Əliyev | Təhsil Problemləri İnstitutunun Tərbiyənin ümumi problemləri şöbəsinin müdiri, üzv |
| Zülfiyyə Veysova | Bakı Avropa Liseyinin direktoru, üzv |

3. Strateji təhlil, planlaşdırma və kadrların idarə olunması şöbəsi (F.Qədirov):

4.1. İxtisasartirma təhsilinin Kurikulum Çərçivəsi əsasında ayrı-ayrı kateqoriyadan olan rəhbər və pedaqoji kadrlar üçün zəruri ixtisasartırma təhsili proqramlarının hazırlanması və qiymətləndirməyə təqdim edilməsi barədə elan verilməsini təmin etsin.

4.2. Əlavə təhsil müəssisələri tərəfindən təqdim olunan ixtisasartirma təhsili proqramlarının qiymətləndirilməsi üçün müvafiq ekspert işçi qruplarının yaradılmasını, qiymətləndirmənin nəticələrinə dair işçi qrupların hesabatları nəzərə alınmaqla proqramların tətbiqi barədə komissiyanın çıxardığı qərar əsasında təlimata uyğun digər prosedurların yerinə yetirilməsini təşkil etsin.

4.3. Tətbiqinə icazə verilmiş ixtisasartirma təhsili proqramlarından ibarət "İxtisasartırma Kataloqu"nun tərtib edilməsini və müntəzəm olaraq yeniləşdirilməsini təmin etsin.

5. 5. İctimaiyyətlə əlaqə şöbəsi (B.Hüseynzadə) bu əmr və ona əlavələrin, hazırlanacaq "İxtisasartırma Kataloqu"nun Təhsil Nazirliyinin rəsmi İnternet saytında yerləşdirilməsini və mətbuatda dərc olunmasını təmin etsin.

6. Ümumi şöbə (X.Fərəcov) əmrin əlavələri ilə birlikdə çoxaldılıb əlavə təhsil müəssisələrinə göndərilməsini təmin etsin.

7. Əmrin icrasına nəzarəti öz üzərimə götürürəm.

***Misir MƏRDANOV,***
***Azərbaycan Respublikasının təhsil naziri***
***18 aprel 2012-ci il***
***№597***

**Əlavələr:**

**Məktəbəqədər, ümumi, ilk peşə-ixtisas və məktəbdənkənar təhsil müəssisələrinin rəhbər və pedaqoji kadrları üçün ixtisasartırma təhsilinin Kurikulum Çərçivəsi**

**İxtisasartırma təhsili proqramlarının qiymətləndirilməsi və tətbiqinə dair təlimat**